

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 210 (23.852)

12 noyabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.

BP qrupunun baş icraçı direktoru Bernard Luni son görüşdən keçən dövr ərzində Azərbaycanın əldə etdiyi uğurlar münasibətilə dövlətimizin başçısını təbrik edib. Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi ilə bağlı əldə edilmiş birgə uğurlar münasibətilə Bernard Lunini təbrik edib və bu layihənin Azərbaycanla BP şirkətinin birgə səyləri nəticəsində əldə olunduğunu bir daha vurğulayıb.

Bildirilib ki, BP şirkəti Azərbaycanla, o cümlədən SOCAR şirkəti ilə dünyada ən güclü tərəfdaşlıq əlaqələrinə malikdir. Öz növbəsində, Azərbaycanın da ən möhkəm tərəfdaşlığı BP şirkəti ilədir. Qeyd edilib ki, ölkəmizin bu şirkətlə qarşılıqlı inama əsaslanan əməkdaşlığının zəngin tarixi və parlaq gələcəyi var.

Söhbət zamanı BP şirkətinin bərpa olunan enerjiyə göstərdiyi marağın Azərbaycanın enerji strategiyasına uyğun gəldiyi qeyd edilib, bu sahədə BP ilə əməkdaşlığın genişlənməsi məsələlərinin nəzərdən keçirildiyi bildirilib, BP şirkətinin işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji ilə bağlı planlarının əhəmiyyətinə toxunulub, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.



## Kompleks quruculuq işləri iqtisadi gücün göstəricisidir

Muxtar respublikada hər il geniş quruculuq işləri aparılır, yaşayış məntəqələri müasir görkəmə qovuşur, insanların sosial-məişət şəraiti yaxşılaşdırılır. Həyata keçirilən quruculuq işləri Culfa rayonunu da əhatə etmişdir. Bu gün istər Culfa şəhəri, istərsə də rayonun kəndləri müasir görkəmi ilə seçilir. Son illər tikilən yeni yaşayış və inzibati binalar, çəkilən yollar, istehsal və xidmət sahələrinin yaradılması, iş yerlərinin açılması Naxçıvanın Şərqə açılan qapısı olan Culfada məskunlaşmanı daha da artırmış, insanların rifahı yaxşılaşmışdır.

## Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsi və 5 dövlət qurumu müasir binada fəaliyyət göstərəcək





Noyabrın 11-də Culfa şəhərində yeni inzibati bina istifadəyə verilmiş, Gigiyena və Epidemiologiya Şöbəsi və digər dövlət qurumları üçün hərtərəfli iş şəraiti yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan binada 6 təşkilat fəaliyyət göstərəcək. Binanın birinci mərtəbəsində bələdiyyə, Dövlət Notariat Kontoru və Culfa Rayon Qeydiyyat Şöbəsi üçün iş otaqları ayrılmışdır. Binanın ikinci mərtəbəsində Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin Culfa Rayon İdarəsinin hər birinə 4 iş otağı və arxiv, binanın birinci və ikinci mərtəbələrində isə Culfa Rayon Statistika İdarəsi üçün iş otaqları nəzərdə tutulmuşdur.

Yenidən qurulmuş binada Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün müasir iş şəraiti yaradılmış, 20 otaq ayrılmışdır. Burada bakterioloji və parazitoloji laboratoriyalar fəaliyyət göstərir. İşin keyfiyyətini artırmaq üçün şöbə nitratometr, radiasiya ölçmək üçün dozimetr, PH-metr, termohiqrometr, binokulyar mikroskop, quruducu şkaf, soyuducu və digər köməkçi tibbi ləvazimatlarla təmin edilmişdir. Bu ilin ötən dövründə şöbə tərəfindən rayon üzrə 3048 obyektdə 872 min kvadratmetr sahə dezinfeksiya, 242 obyektdə 67 min kvadratmetr sahə dezinseksiya olunmuş, bakterioloji laboratoriyada 2202 bakterioloji, parazitoloji laboratoriyada isə 1666 parazitoloji müayinələr aparılmışdır.



Bildirilmişdir ki, Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsinə dezinfeksiya tədbirlərinin daha keyfiyyətlə icra olunmasında vaxt itkisinin qarşısının alınması, avtomaks və dezinfektantların rahat daşınması üçün 8 nəfərlik işçi heyətinin, eyni zamanda istifadə edə biləcəyi "Changan" markalı avtomobil verilmişdir.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayeva minnətdarlıq edərək demişdir: "Muxtar respublikada sanitar-epidemioloji xidmətin yenidən qurulması islahatları başa çatdırılmışdır. Son bir il ərzində Gigiyena və Epidemiologiya Mərkəzi, onun Ordubad, Şərur, Şahbuz və Culfa Rayon Gigiyena və Epidemiologiya şöbələri yenidən qurularaq müasir tibbi və texniki avadanlıqlarla təchiz edilmişdir. Yaradılan şərait imkan verir ki, həmin şöbələr istənilən fəsildə yüksək səviyyədə fəaliyyət göstərsin".

Həkim Hüseyn Əzimov kollektiv adından minnətdarlıq etmiş, bundan sonra da yaradılan şəraitə uyğun fəaliyyətlərini quracaqlarını bildirmişdir.

Binanın ətrafında abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

Ali Məclisin Sədri gigiyena və epidemiologiya tədbirlərinin əhəmiyyətini vurğulamış, əhalinin maarifləndirilməsi, dezinfeksiya işlərinin davam etdirilməsi, Gigiyena və Epidemiologiya şöbələrinin baytarlıq xidməti ilə qarşılıqlı fəaliyyətinin təşkili barədə tapşırıqlar vermişdir.

Ardı 2-ci səhifədə

## Culfa şəhərində yenidənqurma işləri aparılıb





Culfa şəhərindəki E.Nağıyev küçəsi və ona bitişik C.Məmmədquluzadə, Ş.İ.Xətai və M.Müşfiq küçələrində əsaslı yenidənqurma işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov görülən işlərlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, küçələri əhatə edən 3,4 kilometrlik avtomobil yolu yenidən qurularaq asfalt örtük salınmış, yol üzərində 800 metr beton su kanalı çəkilmiş, 3170 metr səki salınmışdır. Yenidənqurma işləri zamanı 22 işıqlandırma dirəyi quraşdırılmış, 4230 metr hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə, 1000 metr məftil elektrik xətləri izolyasiyalı kabellərlə əvəz edilmiş, 922 metr qaz və 2590 metr rabitə xətti çəkilmişdir.

Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev yaradılan şəraitə görə rayon ictimaiyyəti adından minnətdarlıq etmişdir.

## Culfa şəhərində yaşayış binası istifadəyə verilib





Noyabrın 11-də Culfa şəhərində yaşayış binası yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 3 mərtəbəli binada 18 mənzil vardır. Mənzillərdən 12-si üç, 6-sı isə ikiotaqlıdır. Üçotaqlı mənzillərin ümumi sahəsi 90, ikiotaqlı mənzillərin ümumi sahəsi isə 62 kvadratmetrdir. Fərdi istilik sistemi ilə qızdırılacaq mənzillərdə müasir kommunal şərait yaradılmışdır.

Binanın ətrafında abadlıq işləri aparılmış, işıqlandırma dirəkləri quraşdırılmış, yaşıllıqlar salınmış, uşaq əyləncə yeri yaradılmışdır.

Ali Məclisin Sədri yaradılanların qorunması barədə tapşırıq vermişdir.

* * *

Həmin gün Ali Məclisin Sədri Culfa Rayon İcra Hakimiyyəti binasının yenidən qurulması və Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün tikiləcək yeni binanın layihələrinə baxmış, müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Mustafa Kamal Atatürkün vəfatının ildönümü münasibətilə anım tədbiri keçirilib

***Noyabrın 10-da Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğu tərəfindən qardaş ölkənin qurucusu Mustafa Kamal Atatürkün vəfatının 83-cü ildönümü münasibətilə anım tədbiri keçirilmişdir.***





Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz böyük öndərin Naxçıvan şəhərindəki büstü önünə əklil qoymuşdur.

Sonra Mustafa Kamal Atatürkün xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin nümayəndələri, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi ataşşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri, türk iş adamları və türkiyəli tələbələr də iştirak edərək abidə önünə gül dəstələri qoymuş, Mustafa Kamal Atatürkün xatirəsinə ehtiramlarını bildirmişlər.

Anım tədbiri Türkiyənin Naxçıvandakı Baş Konsulluğunda davam etdirilmişdir.

**"Şərq qapısı"**



## İsti qış geyimləri hərbi hissəyə təhvil verilib

Sağlamlıq imkanları məhdud qadınlar tərəfindən toxunulan isti qış geyimləri hərbi hissəyə təhvil verilib. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev bildirib ki, avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırığa uyğun olaraq hərbi hissələr üçün isti qış geyimlərinin toxunması işi davam etdirilib. Bu tədbirlərin davamı olaraq bu gün məhdud fiziki imkanlı şəxslər tərəfindən toxunmuş 800 yun jilet, 2500 cüt yun corab və 1000 ədəd boyunluq əsgərlərimizə hədiyyə edilir.

Bildirilib ki, isti qış geyimləri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansında olan 1 ədəd generator da hərbi hissəyə təqdim olunur. Nicat Babayev göstərilən yüksək qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlıq edib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini, general-mayor Elxan Əlibəyov tədbirdə çıxış edərək bildirib ki, əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi də növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür.

Tədbirdə hərbi qulluqçular göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Çıxışların ardından isti qış geyimləri hərbi hissə və zastavalara təhvil verilib.

**Xəbərlər şöbəsi**

### 12 noyabr Konstitusiya Günüdür

## Konstitusiyamız müstəqilliyimizin əsas təminatçısıdır

***Hər il 12 noyabr – Azərbaycan Respublikası Konstitusiyasının qəbul edildiyi gün ölkəmizdə qeyd olunur. Konstitusiyanın qəbulu Azərbaycanın müstəqilliyinin ilk illərində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri olmuş, ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində yeni mərhələnin əsasını qoymuşdur. Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbul edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin dönməz iradəsi, gərgin əməyi, dərin hüquq düşüncəsi və siyasi uzaqgörənliyi nəticəsində mümkün olmuşdur.***




Böyük öndərimiz əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın – Əsas Qanunun rolu qat-qat artır. Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı.

Konstitusiya dövlət və xalq arasında ən mühüm ictimai münasibətləri tənzimləyən, konstitusion quruluşun, dövlət hakimiyyəti təşkilinin əsaslarını özündə əks etdirən ali qanundur. Azərbaycanın qanunvericilik sisteminin bünövrəsini təşkil edən, Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə siyasi sabitliyin, milli sülhün və barışığın qarantı kimi çıxış edir, hüquqi-siyasi münasibətlər sisteminə və hüquq düşüncəsinə əhəmiyyətli təsir göstərir.

1995-ci ildə Konstitusiya Komissiyası yaradıldı. Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirildi. İclasda ölkənin təcrübəli və yüksək təhsilli hüquqşünasları, dövlət hakimiyyətinin hər üç qolundan olan nümayəndələr, ziyalılar, alimlər iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Konstitusiya Komissiyası tərəfindən hazırlanaraq ümumxalq müzakirəsinə çıxarılan Əsas Qanunun layihəsi 1995-ci il noyabrın 12-də keçirilən referendumda qəbul edildi. Böyük zəhmət tələb edən gərgin işdən sonra Əsas Qanunun baza müddəaları, daha sonra isə onun layihə mətni ictimai müzakirəyə çıxarıldı. Ümummilli lider Heydər Əliyev demişdir: ***"Bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var ki, deyəm, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam. Onun bu gün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altına imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bəyan edirəm".***

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək ümumxalq səsverməsi – referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul etdi. Konstitusiyada demokratik təsisatlar, hüquqi dövlətin atributları, hakimiyyət bölgüsü, insan hüquq və azadlıqları və onların təminatı kimi mütərəqqi müddəalar öz əksini tapmışdı. Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi Konstitusiyamızın demokratik dəyərlərini əks etdirir. Konstitusiyamız özünün hüquqilik dəyərinə, demokratiklik əlamətlərinə görə dünyanın bir çox inkişaf etmiş dövlətlərinin konstitusiyaları ilə müqayisədə daha təkmil və əhatəlidir.

Hər bir demokratik ölkədə hakimiyyət yalnız xalqın iradəsi əsasında formalaşa bilər. Təsadüfi deyil ki, Konstitusiyamızın birinci maddəsi Azərbaycan xalqını dövlət hakimiyyətinin yeganə mənbəyi hesab edir. Əsas Qanunda sərbəst və müstəqil öz müqəddəratını həll etmək, öz idarəetmə formasını müəyyən etmək xalqın suveren hüququ kimi təsbit olunur. Konstitusiyamızın ikinci fəsli ilə Azərbaycan dövlətinin hüquqi statusu müəyyənləşdirilmiş, siyasi-hərbi, sosial-iqtisadi inkişafının əsas prinsipləri təsbit olunmuşdur. Dövlətin idarəetmə mexanizmi isə dünyanın demokratik cəhətdən inkişaf etmiş ölkələrində əsas meyar kimi götürülərək sınaqdan çıxmış hakimiyyətin səlahiyyətlər bölgüsü əsasında həyata keçirilməsi prinsipinə əsasən təşkil olunmuşdur.

Konstitusiyamızda ilk dəfə yerli özünüidarəetmə orqanları kimi bələdiyyələrin statusu konstitusion səviyyədə təsbit edilmişdir. Məhz bu Konstitusiyamızın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə orqanı – bələdiyyələr yaradılmış və fəaliyyətə başlamışdır. Konstitusiyamızın mütərəqqi cəhətlərindən biri də onun üçdəbir hissəsinin insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunması, bu hüquq və azadlıqların qorunmasının dövlət hakimiyyəti orqanlarının əsas vəzifəsi kimi müəyyən edilməsidir.

Konstitusiya dövlətin hər hansı bir marağa deyil, məhz vətəndaşların mənafelərinə, şəxsiyyətin maraqlarına xidmət etdiyini ən yüksək səviyyədə bəyan edir. Bu baxımdan təsadüfi deyil ki, Konstitusiyamızın ən geniş fəslində məhz əsas insan və vətəndaş hüquq və azadlıqları, bu hüquqların və azadlıqların təminatı, habelə ayrı-ayrı hüquq və azadlıqların qanuni məhdudlaşdırılmasının yol verilən hədləri ehtiva edilmişdir.

Hüquqi dövləti səciyyələndirən cəhətlərdən biri də hüququn aliliyinin tanınması, insan hüquq və azadlıqlarına hörmətdir. Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirərək, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi kimi müəyyən etməklə insan hüquqlarına hörmət yolunu seçməsini bəyan etdi. Azərbaycan Respublikasının 2001-ci ilin yanvar ayının 25-də Avropa Şurasına daxil olmaqla və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmaqla demokratik ənənələrə, ədalətə, yurisdiksiyası altında olan insanlar üçün fundamental hüquq və əsas azadlıqların təmininə sadiqliyini bir daha ifadə etdi. Müstəqilliyin ilk illəri Azərbaycan Respublikasının universal və regional xarakterli beynəlxalq təşkilatlara daxil olması və çoxsaylı beynəlxalq müqavilələrə qoşulması ilə səciyyələnir. Həmin müqavilələrin mühüm bir hissəsi insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir. Bu sahədə görülən tədbirlərin bir hissəsini də milli qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquqlarının müdafiəsinə xidmət edən mexanizmlərin yaradılması və yenidən qurulması, məhkəmələrin fəaliyyətinin dövrün tələblərinə uyğunlaşdırılması, məhkəmə sisteminin müasirləşdirilməsi təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının dövlət müdafiəsini təmin etmək üçün Konstitusiya həmin vəzifənin həyata keçirilməsinin müxtəlif üsul və vasitələri də daxil olmaqla, təminat sistemini nəzərdə tutur. Konstitusiyada məhkəmə hakimiyyətinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ifadəsini tapdı. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü hissəsinə müvafiq olaraq məhkəmə hakimiyyəti hakimiyyətin qollarından biridir. Ona görə də məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin bir qolu kimi gerçəkliyə həqiqi təsir göstərmək imkanı olmadan mövcud ola bilməz. Ulu öndər demokratik dövlət quruculuğu prosesini ölkədə məhkəmə hüquq islahatlarının həyata keçirilməsi ilə əlaqələndirirdi: ***"Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir".***

Konstitusiyada onun birbaşa hüquqi qüvvəsi və beynəlxalq hüquq normalarının qanunvericilik sistemində yeri müəyyən edildi. Azərbaycan Respublikasının Konstitusiyasının 147-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Əsas Qanunumuzda Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqi statusuna həsr olunmuş xüsusi fəslin olması Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsi üçün əsas yaratmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 8-ci fəslində əks olunmuş müddəalar əsas götürülərək Naxçıvan Muxtar Respublikası Konstitusiyasının layihəsi hazırlanıb 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində Konstitusiya Qanunu kimi qəbul edildikdən sonra 8 yanvar 1999-cu ildə qüvvəyə minmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsi Naxçıvan Muxtar Respublikasının statusunu, muxtariyyətinin əsaslarını, dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkilini, onların qarşılıqlı əlaqəsini müəyyənləşdirmişdir. Bu Konstitusiya ilə Naxçıvan Muxtar Respublikasında ilk dəfə Ali vəzifəli şəxs institutu təsis edilmişdir. Bu Konstitusiyanın qəbulu siyasi-hüquqi əhəmiyyətinə görə nəinki muxtar respublikada, bütövlükdə, ölkəmizdə mühüm əlamətdar hadisəyə çevrilmiş, beynəlxalq təcrübədə nümunəvi model kimi dövlət idarəetməsinin təşkilinin mükəmməl hüquqi bazasını yaratmışdır.

Qeyd edilməlidir ki, Əsas Qanunun qəbulu zamanı onun tənzimetmə predmetinə daxil olan ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişdikcə, ictimai münasibətlər inkişaf etdikcə öz təbiətinə görə kifayət qədər sabit normativ-hüquqi akt olan Konstitusiyaya da bir daha nəzər salınması, onun müəyyən müddəalarının təkmilləşdirilməsi, mütərəqqi əlavələrin və dəyişikliklərin edilməsi zərurəti yaranır. Məhz bu cür zərurətdən irəli gələrək 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərdə keçirilmiş referendumlar nəticəsində Konstitusiyaya bir sıra əhəmiyyətli əlavələr və dəyişikliklər edilmişdir.

Bu gün torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunması həm də vətəndaşların konstitusion hüquqlarının bərpası və dövlətin əsasını bərqərar edir. Belə ki, Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, Konstitusiyanın qəbul edilməsində bəyan etdiyi ülvi niyyətlərdən birini – Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaqdadır.

Konstitusiyamıza əsasən "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir". Bundan əlavə, 30 ilə yaxındır, öz yurdlarından məcburi köçürülmüş vətəndaşlarımızın öz torpaqlarına qayıtması onların pozulmuş mülkiyyət hüquqlarının bərpasına da şərait yaradacaq. Rəşadətli Azərbaycan Ordusunun apardığı uğurlu əməliyyatlar xalqımızın əsas konstitusion hüquqlarından biri olan təhlükəsiz yaşamaq hüququnun da bərpa olunmasının əsasını qoydu. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin ətrafında sıx birləşərək şanlı zəfər qazandı və Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin bərpasına nail oldu.

*Möhkəm hüquqi bazaya malik olan Azərbaycan Respublikasının Konstitusiyası hələ uzun illər Azərbaycan Respublikasının sabitlik şəraitində davamlı inkişafını təmin etməyə, müstəqil dövlətimizin demokratik inkişaf hədəflərini müəyyənləşdirməyə, müstəqilliyimizi yaşatmağa qadir olacaq və Azərbaycan xalqına xidmət edəcəkdir.*

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti**

## Qəbul göstəricilərinin artması uğurlu təhsil islahatlarının bəhrəsidir

*Muxtar respublikada təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, infrastruktur yenilənir. Müstəqillik illərində muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox məktəb binası istifadəyə verilmişdir.*

Bu gün muxtar respublikanın təhsil müəssisələrində yaradılan müasir tədris şəraiti, mütərəqqi təhsil metodlarının tətbiqi, müəllim əməyinə verilən yüksək qiymət sayəsində tədrisin səviyyəsi yüksəlmiş, əvvəlki illərdə olduğu kimi, 2020-2021-ci tədris ilində də şagirdlər müxtəlif səviyyəli bilik yarışlarında, buraxılış imtahanlarında, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunda uğurlu nəticələr qazanmışdır. 2020-2021-ci tədris ilində ümumtəhsil məktəblərini tam orta təhsil bazasından bitirən məzunlardan 17-si "Qızıl", 17-si "Gümüş" nişana, 41-i fərqlənmə attestatına, ümumi orta təhsil bazasından isə 121-i fərqlənmə attestatına layiq görülmüşdür. Muxtar respublika üzrə şagirdlərdən 26-sı Respublika fənn olimpiadasının qalibi olmuş, VI Respublika fənn müsabiqəsində isə şagirdlərdən 6-sı qızıl, 12-si gümüş, 18-i bürünc medala, 19-u isə IV yerə layiq görülmüşdür.

2020-2021-ci tədris ili üzrə ümumtəhsil məktəblərini Heydər Əliyev adına Hərbi Lisey də daxil olmaqla, bitirən məzunların 1960-ı, yəni 73 faizi ali və orta ixtisas təhsili müəssisələrinə daxil olmuşdur. 261 məzun 500-700 bal intervalında nəticə göstərmiş, onlardan 3-ü Prezident təqaüdünə layiq görülmüşdür.

Ötən il ali məktəblərə qəbulda muxtar respublikanın 109 məktəbinin məzunları 500-700 arası nəticə göstərmişdirsə, cari tədris ilində bu nəticəni göstərən məktəblərin sayı artaraq 114-ə çatmışdır. Bu gün ən ucqar dağ kəndində belə, ümumtəhsil məktəbləri üçün müasir binaların tikilib istifadəyə verilməsi, müasir tədris avadanlıqları ilə təchiz olunması və məktəblərin pedaqoji kollektivlərinin komplektləşdirilməsi nəticəsində tədrisin keyfiyyəti yüksəlmişdir. Naxçıvan şəhəri və rayon mərkəzlərindəki tam orta məktəblərlə yanaşı, yüksək nəticə göstərənlər sırasında kənd məktəblərinin də məzunları çoxluq təşkil edir. Yüksək nəticə göstərən məktəblərin 83-ü kənd, 31-i isə şəhər məktəbləridir. Bununla yanaşı, 33 ümumtəhsil məktəbinin məzunlarının hamısı tələbə adını qazanmışdır.

Muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində yaradılan müasir infrastrukturun nəticəsidir ki, abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə üstünlük vermişlər. Belə ki, 500-700 arası nəticə göstərən abituriyentlərin 150-si, yəni 57 faizi muxtar respublika ali təhsil müəssisələrinə qəbul olmuşdur. Ümumilikdə, ali məktəblərə qəbul olanların 1117-si, yəni 75 faizi muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil almağa üstünlük vermişlər.

Müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiənin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter alması bu peşəyə olan marağı artırmış, 500-700 intervalında nəticə göstərən 261 məzunun 65-i, yaxud 25 faizi, ümumilikdə isə cari ilin məzunlarından 548-i, yaxud 37 faizi pedaqoji yönümlü ixtisasları seçmişlər.

Naxçıvan Muxtar Respublikasında məktəblilərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Belə ki, təhsil müəssisələrində hərbi kabinələrin fəaliyyət göstərməsi, onlara lazımi avadanlıqların verilməsi, eyni zamanda bu sahə üzrə həyata keçirilən müxtəlif tədbirlər, yarış və müsabiqələr məktəbli gənclərin ibtidai hərbi hazırlığına, vətənpərvərlik hissinin güclənməsinə müsbət təsir göstərmiş, hərbi təhsilə marağı xeyli artırmışdır. Nəticədə, 2021-ci ildə məzunlardan 32-si xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul olmuşdur. Tam orta təhsil bazasından isə 20 nəfər Naxçıvan Tibb Kollecinin Hərbi feldşer ixtisasına qəbul olmuşdur. 2021-ci ildə muxtar respublikanın 149 ümumtəhsil məktəbindən Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün 425 şagird sənəd vermiş, onlardan 156-sı kursant adını qazanmışdır.

Muxtar respublikada təhsilin dövlət qayğısı ilə əhatə edilməsi əldə olunan uğurlu nəticələrin gələcək illərdə də davamlı xarakter alacağını şərtləndirir.

**"Şərq qapısı"**




# Oxucu məktubları



## Minnətdarlıq

### Bilirəm ki, oğlumun ruhu şaddır
### *Çünki onun ailəsinin qayğısını çəkən dövlətimiz var*

***Salam, hörmətli redaksiya!***

Uzun illərdir ki, hamımızın ürəyində bir qor yanırdı. Bir dərd daşıyırdıq hamımız: yurd həsrəti. Şükür Allaha ki Tanrı haqqımızı haqq elan etdi. İllərdir, davam edən ədalətsizliyə son qoyuldu. İgid övladlarımız qanayan yaramıza məlhəm oldular. Onlar öz canları bahasına alnımıza yazılan ləkəni sildilər. Qələbə çalıb başımızı uca etdilər. Anaları olan Vətənin dərdinə dərman olub bizə həm bir ömürlük qürur, həm də dərd qoyub getdilər.

Vətən müharibəsi başlayandan bir neçə gün sonra oğlum əbədiyyətə qovuşduğu gündən bu yana mən və ailəm dövlətimizin qayğıkeş əlini hər an çiynimizdə hiss etmişik. Övladımın şəhadətə qovuşub Vətən torpağına tapşırıldığı gündən bu günə kimi hər bir dövlət qurumu tərəfindən hörmət və ehtiram görmüşük.





Digər övladımın işsizlik problemi ilə bağlı üz tutduğum təşkilatlarda hörmətlə qarşılandım və oğlum işlə təmin olundu. Yaşayış yerimizə baxış keçirildikdən sonra Şərur şəhərindəki yeni binada mənzillə təmin edildim. Bir sözlə, onu deyə bilərəm ki, ölkəmizin hər yerində olduğu kimi, doğma diyarımızda da şəhid ailələri və qazilər, necə deyərlər, əl üstündə tutulur. Onların qayğısına qalınır, qarşılaşa biləcəyimiz bütün çətinliklərə dövlətimizin sayəsində sinə gəririk.

Övladını itirmiş bir valideynin ürəyindəki dərdi heç nə sağalda bilməsə də, dövlətimizin qayğısı bizim dərdimizə məlhəm olur. Biz şəhid ailələrinin ən böyük təsəllisi var: əzizlərimizin xatirəsinə ehtiramla yanaşılır, onlar unudulmur. Bunu doğma Naxçıvanımızda da görürük. Şəhidlərin ruhu isə onların arxada qoyub getdiyi ailəsindən rahat olanda şad olur.

Qədim Azərbaycanın mərdlik qalası Naxçıvanda yaşayan hər bir şəhid ailəsi adından dövlətimizə minnətdaram.

**Ruhəngiz GÖZƏLOVA**
***Sədərək rayonu, Dəmirçi kənd sakini***

### Vətən müdafiəçilərinə qayğı həm də gənc nəsli vətənpərvər ruhda yetişdirmək deməkdir

***Hörmətli redaksiya!***



Mənfur ermənilər üzərində qazandığımız Böyük Qələbədən bir il ötdü. 30 ilə yaxın bir müddətdə işğal altında qalmış torpaqlarımız azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Mən həmin müharibədən doğma Naxçıvanımıza qazi kimi qayıtsam da, qürurluyam. Ona görə ki, torpaqlarımızın geri alınmasında mən də iştirak etmişəm. O torpaqlar şəhid və qazilərimizin şücaəti, igidliyi və qanı bahasına işğaldan azad edildi.

Mən Füzuli istiqamətində tankçı kimi döyüşlərdə vuruşdum. İki dəfə yaralandım. Bildiyiniz kimi, bu müharibədə iştirak edərək şəhidlik zirvəsinə yüksələn, qazi kimi evinə qayıdan bütün igid oğullarımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif orden və medallara layiq görülüb. Mən də “Füzulinin azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı”, “Cəsur döyüşçü” medalları ilə təltif edilmişəm. Noyabr ayının 5-i isə mənim üçün gözlənilməz və sevindirici oldu. Həmin gün 8 şəhid ailəsinə və 1 qaziyə mənzil, sağlamlıqları məhdudlaşmış 13 şəxsə avtomobil verildi. Həmin tədbirdə bizimlə görüşən Ali Məclisin Sədri bildirdi ki, döyüş meydanında qələbənin qazanılması üçün hərbi və iqtisadi güclə bərabər Vətən sevgisi və milli birlik də vacibdir.

İkinci Qarabağ müharibəsində Azərbaycan dövlətinin ən böyük gücü də iqtisadi və hərbi qüdrəti ilə yanaşı, həm də malik olduğu vətənpərvər insanları oldu. İgid oğullarımız əsl vətənpərvərlik nümunəsi göstərərək xalqımıza böyük Zəfər qazandırdılar. Bütövlükdə, Vətən müharibəsi Azərbaycan tarixinin Zəfər salnaməsinə çevrildi. Bu salnamə gələcək nəsillər üçün vətənpərvərlik, milli birlik və həmrəylik nümunəsidir.

Həmin gün mənə də yeni avtomobilin açarı təqdim olundu. Bu, hər bir müharibə iştirakçısına, şəhid ailəsinə böyük diqqət və qayğının ifadəsidir. Mən də öz ailəm adından mənə göstərilən belə qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımı bildirirəm.

**Əli ƏLİSOY**
***Şərur rayonu, Danyeri kənd sakini,***
***Vətən müharibəsi iştirakçısı***

### Gələcək fəaliyyətimiz üçün böyük stimul yaradılıb

***Salam, hörmətli redaksiya!***

Bu gün muxtar respublikamızda təhsil dayanmadan inkişaf edir. Gənclər hər cür şəraiti – kompüterlər, elektron lövhələr, laboratoriyalar, STEAM və fənn kabinələri, peşəkar müəllim heyəti olan məktəblərdə yetişirlər. Təhsilə göstərilən diqqət və qayğı bu sahədə ardıcıl uğurların qazanılmasına əlverişli imkanlar açır. Bu uğurların başında isə fikrimcə, orta məktəbi yüksək balla bitirib ali təhsil müəssisələrinə qəbul olunmaq durur. Bu prosesə hər il şahid oluruq.

Mən də orta təhsilimi Culfa rayonunun Bənəniyar kəndində almışam. Muxtar respublika üzrə keçirilən bilik yarışlarında, fənn olimpiadalarında, beynəlxalq olimpiadalarda iştirak edib, uğurlar qazanmışam. XI sinfi “Qızıl” nişanla bitirmişəm. Builki qəbul imtahanında yüksək nəticə əldə etmişəm. I ixtisas qrupu üzrə 676 bal toplayaraq tələbə adına layiq görülmüş, eyni zamanda muxtar respublika ikincisi olmuşam. Buna özümə inanaraq və əzmlə çalışaraq müəllimlərimin sayəsində nail olmuşam. Burada məktəbimizdə yaradılan müasir tədris şəraiti də mühüm rol oynayıb. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan məzunlarla görüşü biz gənclərə böyük stimul verir. Cari il sentyabrın 9-da muxtar respublika rəhbərinin bizimlə görüşündə iştirak edə bildiyim üçün fəxr edirəm. Cənab Sədrimizin orada söylədiyi tarixi fikirləri həyat amalımıza çevirib yolumuza davam edirik. Hazırda Bakı Ali Neft Məktəbində Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisası üzrə təhsilimi davam etdirirəm. Çalışacağam ki, seçdiyim peşəni dərindən öyrənim, qazandığım biliklərlə ölkəmizə fayda verə bilim.

**Oğuz HƏSƏNLİ**
***Bakı Ali Neft Məktəbinin I kurs tələbəsi***

### Gənc istedadların yetişməsi üçün muxtar respublikada hərtərəfli şərait mövcuddur

***“Şərq qapısı” qəzetinin kollektivinə!***



Güman edirəm ki, bir valideyn kimi qürur və sevincimə şərik olub bu məktubumu qəzetinizdə dərc edəcəksiniz.

Muxtar respublikamızın uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə olunmasına zəmin yaradır. Bu tərəqqinin geniş vüsət almasında gənclərin də rolu böyükdür. Belə gənclərimizdən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 iyul tarixli Sərəncamına əsasən adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na təhsil sahəsi üzrə salınan oğlum Nicat Əlizadədir. Bu xəbər onun müəllimlərinin və biz valideynlərin böyük sevincinə səbəb oldu.

Nicat kiçik yaşlarından öz bilik və bacarığı ilə yaşıdlarından fərqlənirdi. IX sinfi fərqlənmə attestatı ilə bitirib. İndiyədək müxtəlif nailiyyətlər əldə edib. Belə ki, o, 2019-cu ildə Amerika Riyaziyyatçılar Assosiasiyası tərəfindən təşkil olunan Beynəlxalq riyaziyyat olimpiadasında II, həmin il muxtar respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə III yerin qalibi olmuş, 2019-2020-ci tədris ilində isə respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə Qızıl medala layiq görülmüşdür. Eyni zamanda Amerika Riyaziyyatçılar Assosiasiyasının fəxri fərmanı ilə təltif edilmişdir.

Nicatın təhsilə olan sevgisi məktəbə ilk qədəm qoyduğu gündən onu yaxşı oxumağa, biliklərə yiyələnməyə sövq edib. Çünki görüb ki, təhsilli olmaq hər zaman, hər yerdə böyük nailiyyətlər əldə etməyə kömək edir. Ali Məclis Sədrinin Sərəncamını eşidəndə sevincimin həddi-hüdudu yox idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsinin, Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının, eləcə də Naxçıvan Muxtar Respublikası fəxri adlarının və gənc istedadlara xüsusi aylıq təqaüdün təqdimat mərasimində Nicat da iştirak edib və ona da xüsusi aylıq təqaüd kartı təqdim olunub.

Övladıma və onun kimi yüzlərlə şagirdə göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə ailəm adından minnətdarlığımı bildirirəm. Nicat həmişə çalışacaq ki, ona göstərilən etimadı doğrultsun.

**Məmməd ƏLİYEV**
***Sədərək rayonu, Heydərabad qəsəbə sakini***

## Razılıq

### Kəndimizin yeni görkəmi bizi qürurlandırır



***Hörmətli redaksiya, bu məktubu sizə ünvanlamaqla həmkəndlilərimin sevincini bölüşmək istərdim.***

Yaşlı və orta nəslin nümayəndələri yaxşı xatırlayar sovetlər dönəmindəki yollarımızı. Heç yadımdan çıxmaz. O dövrdə uzaq eldə xeyir iş olanda qayğı bizi götürər, saatlar öncəsindən hazırlaşıb yola düzələrdik ki, vaxtında ünvana yetişə bilək. Lakin yolların bərbadlığı üzündən əksər hallarda buna müyəssər olmaz, qohum-əqrəba yanında xəcalətli qalardıq. Lakin müstəqilliyimizin bərpasından sonra muxtar respublikamızın yollarının tam müasir formada yenidən qurulması ilə həm piyadaların, həm də sürücülərin işi xeyli asanlaşıb. İndi, hətta gecə yarısında belə, ən ucqar kəndə əmin-arxayın şəkildə gedib qayıda bilirik.

Araz kəndinin də yolları əvvəllər daşlı-kəsəkli idi. Artıq bu gün bütün yaşayış məntəqələri kimi, bizim kənddə də abadlıq tədbirləri çərçivəsində gözəl yol infrastrukturu qurulub. Bundan başqa sağlamlığımızın keşiyində dayanan feldşer-mama məntəqəsi müasir tələblər səviyyəsində yenidən fəaliyyətə başlayıb. Həmçinin gündəlik lazımi xidmətlərdən yararlanmağımız üçün yaraşıqlı kənd və xidmət mərkəzləri də istifadəyə verilib. Digər yaşayış məntəqələrimiz kimi, Araz kəndində də yeni məktəb binasının istifadəyə verilməsi sakinlərdə, müəllimlərdə, şagirdlərdə dövlətimizə olan rəğbət hissini daha da artırıb. Ümumiyyətlə, bu gün kəndimizdə hər cür şərait var. İçməli su və kanalizasiya sistemləri çəkilib, elektrik xətləri, dirəkləri yenilənib, bir sözlə, firavan yaşayışımız təmin olunub. Bizə isə qurub-yaradılanları göz bəbəyi kimi qorumaq və öz əməlimizlə diyarımızın inkişafına töhfə vermək qalır. Mən bütün kənd sakinləri adından gözəl, hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıq edirəm.

**Əqil SADİQOV**
***Babək rayonu, Araz kənd sakini***

### Yaradılan müasir şərait bizə ən böyük hədiyyədir

***“Şərq qapısı” qəzeti redaksiyasına!*** Diyarımızda insanların rifahı üçün ucqar dağ kəndlərində də kompleks tikinti-quruculuq işləri aparılır, yollar yenidən çəkilir, körpülər salınır, digər lazımi tədbirlər görülür. Görülən işlər bizi qürurlandırır və sevindirir.



Muxtar respublikamızın digər kəndləri kimi, Ordubad rayonunun Aşağı Əndəmic kəndi də Ali Məclis Sədrinin qayğısı ilə cari ilin sentyabrın 15-də müasir yaşayış məntəqəsinə çevrildi. Onu deyim ki, kəndimizin simasına yeni məktəb, kənd və xidmət mərkəzləri, müasir yollar xüsusi yaraşıq verib. Bu həm də bizə verilən ən böyük hədiyyədir, eyni zamanda bir kəndin timsalında vətəndaşlarımıza göstərilən qayğının ifadəsidir.

Bildirim ki, Əndəmic kənd tam orta məktəbinin yeni binası müəllim və şagirdlərimizin imkanlarını artırır. Bu məktəbdə təhsilli, bilikli, vətənpərvər, sağlam gənclik yetişir. Bu gün kənd mərkəzində zəngin kitabxana yerləşir. Onun fondunda 6000-dən çox kitab vardır. Bu, insanları mütaliəyə, savad öyrənməyə sövq edən başlıca amildir. Kənddə internetə çıxış imkanları yaradılıb. Burada yaşayan sakinlər ailə təsərrüfatlarını formalaşdırıblar. Kəndin xidmət mərkəzində onların istehsal etdikləri məhsullar da yer alır. Yollarımız da yenidən qurulub. Bir sözlə, kəndimizdə hər cür şərait vardır. Bütün bunlara görə kənd sakinləri və öz adımdan muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

**Ruqiyyə HACIYEVA**
***Ordubad rayonu, Aşağı Əndəmic kənd sakini***

### İtmişdir

Şərur rayonunun Alışar kəndində yaşamış Nəcəfov İbrahim Şirəli oğlunun adına verilmiş JN-$257^{A}$ və JN-$257^{B}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

* * *

Nağıyev Nuran Oqtay oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 942